**Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nda və 2017-ci il 24 may tarixli 1418 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Güzəştli mənzil" sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 469 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 noyabr tarixli 1113 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 11, maddə 1820; 2017, 5, maddə 821, 11, maddə 2006; 2018, 2, maddə 181, 5, maddə 920, 6, maddə 1196, 9, maddə 1825; 2019, 1, maddə 59, 2, maddə 218) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nın 5.5-1-ci (hər iki halda) və 6.4-cü bəndlərində "Elektron ipoteka" sözləri "Elektron ipoteka və kredit zəmanət" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 may tarixli 1418 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, 5, maddə 822; 2018, 5, maddə 920, 6, maddə 1196, 9, maddə 1825; 2019, 2, maddə 218) ilə təsdiq edilmiş "Güzəştli mənzil" sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.2-ci yarımbəndə "nəzərdə tutulan" sözlərindən sonra "elektron kabinet verilmiş şəxslər və" sözləri əlavə edilsin;

2.2. 6.1.13-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.1.13. mənzilin dəyərinin ödənilməsi üsulunun seçilməsi;";

2.3. 6.1.14-cü yarımbəndə "mənzili" sözündən sonra ", Qaydanın 5.7-1-ci bəndinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin;

2.4. 6.1.15-ci yarımbənddə "müraciətedənin" sözü "istifadəçinin" sözü ilə əvəz edilsin;

2.5. 6.2-ci bənddə "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi" sözləri "Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi" sözləri ilə əvəz edilsin;

2.6. 8.0.1-ci yarımbənd üzrə:

2.6.1. 1-ci abzasda "kabinet yaratmaq" sözü "kabinetdən istifadə etmək" sözləri ilə əvəz edilsin;

2.6.2. 3-cü abzasda "4.3.1–4.3.9-cu" sözləri "4.3.1–4.3.10-cu" sözləri ilə əvəz edilsin;

2.6.3. 6-cı abzas aşağıdakı redaksiyada verilsin:

"6. mənzilin dəyərinin ödənilməsi üsulunun seçilməsi;";

2.7. 8.0.2-ci yarımbəndin 1-ci abzası aşağıdakı redaksiyada verilsin:

"1. Qaydada nəzərdə tutulan bildirişləri istifadəçinin elektron kabinetində yerləşdirmək;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 may 2019-cu il
685